**UOT 94 (479.24)**

# BORÇALILAR İKİNCİ RUS-QACAR MÜHARİBƏSİNDƏ

**F.V.HACIYEV**
***AMEA Tarix İnstitutu***
***haciyevf@yahoo.com***

*1826-1828-ci illər rus-Qacar müharibəsi ərəfəsində əvvəlki 1804-1813-cü illər rus-Qacar müharibəsinin təcrübəsindən faydalanaraq həm Rusiya imperiyası, həm də Qacar dövləti sərhədyanı bölgələrdə, xüsusən də Borçalıda yaşayan döyüşkən qarapapaqları öz tərəflərinə çəkmək üçün səylərini əsirgəmirdi. Nəticədə müəyyən imtiyazlar qarşılığında rus ordusu sıralarına keçənlər olsa da, qarapapaqların çoxu Qacar ordusunda öz dil, din və qan qardaşları ilə çiyin-çiyinə döyüşməyi üstün tutdular. Onlardan Nağı xan və İsmayıl xanın komandanlığındakı Borçalı könüllü süvari dəstələri igidlikləri ilə fərqlənirdilər.*

*Məqalədə Nağı xan və İsmayıl xanın başçılığı altında Borçalı azərbaycanlılarının (qarapapaqların) 1826-1828-ci illər rus-Qacar müharibəsində iştirakı tədqiq olunur.*

**Açar sözlər:** Nağı xan, İsmayıl ağa, qarapapaqlar, hərb tarixi, rus-qacar müharibəsi

1813-cü ildə Rusiya ilə Qacar İranı arasında imzalanmış Gülüstan sülh müqaviləsindən sonra da bu dövlətlər arasındakı münasibətlər gərgin olaraq qalırdı. Qacarlar itirilmiş Şimali Azərbaycan ərazilərini geri qaytarmaq ümidində, Rusiya isə qacarlardan yeni torpaqlar qoparmaq niyyətində idi. Hər iki dövlət gizlicə müharibəyə hazırlaşır və bu məqsədlə sərhəd bölgəsində – Borçalı, Qazax, Pəmbək, Şürəgəl mahallarında yaşayan döyüşkən ruhlu qarapapaqları (azərbaycanlıların subetnik qrupu) öz tərəflərinə çəkmək üçün əllərindən gələni əsirgəmirdi. Rus tarixi qaynaqları və rəsmi yazışmalar bundan əvvəlki müharibədə olduğu kimi, qacar hakimiyyətinin qarapapaqları İrəvan xanlığına və öz tabeliklərindəki digər bölgələrə köçürmək üçün hər bir vasitəyə əl atdıqlarını, rusların isə hər bir vəchlə bunun qarşısını almağa çalışdıqlarını sübut edir.

İkinci rus-qacar müharibəsi başlamazdan bir müddət əvvəl iki min ailədən çox Borçalı qarapapağı müəyyən imtiyazların qarşılığında rus təbəəliyindən çıxıb İrəvan xanlığına köç edir. Bu qarapapaqlardan bir hissəsi Tərkavünlü Nağı xanın başçılığı altında Göyçə mahalında, digər hissəsi isə İsmayıl ağanın başçılığı altında Dərəçiçəkdə məskunlaşır.

Rusların sərhəd xəttindəki hərbi dəstələrinə rəhbərlik edən Tiflis piyada alayının komandanı, polkovnik L.Sevarsamidzenin general-leytenant A.Velyaminova yazdığı 12 fevral 1826-cı il tarixli raportundan İrəvan sərdarının Nağı xan və İsmayıl ağa ilə görüşdüyü bəlli olur [1, 49], həmin ilin 14 iyul tarixli raportunda isə qarapapaq və Göyçə atlılarının rus sərhədləri yaxınlığındakı Balıqçayda cəmləşdikləri bildirilirdi [1, 151]. Bu sonuncu raportdan cəmi iki gün sonra qacar vəliəhdi Abbas Mirzə böyük bir qoşunla Qarabağa hücum edir və bununla da uzunmüddətli siyasi gərginliyin yekunu olaraq 1826-1828-ci illər rus-qacar savaşının başlanmasına rəvac verir.

Rusların sərhəddəki hərbi hissələrini darmadağın edən Qacar qoşunları 26 iyulda Şuşa qalasını mühasirəyə alırlar. Abbas Mirzənin qoşunlarının bir hissəsi Şuşanı mühasirədə saxlayır, qalanları isə Tiflisə doğru hərəkət edir. Eyni zamanda İrəvan xanı Hüseyn xan kürd atlıları ilə birlikdə Pəmbək və Şürəgəl tərəfdən hücum edib, Gümrü və Qarakilsəni mühasirəyə alır.

Rus baş komandanı general A.P.Yermolov Borçalı, Qazax və Şəmşəddil distansiyalarının sakinlərinə 1826-cı il 26 iyulda müraciət edərək deyirdi: «Bilirsiniz ki, iranlılar sərhədi keçib Qarabağa girib… Sizi şirnikləşdirib vətəndən uzaqlara, İrana köçürmək istəyəcəklər. Dəmirçihasanlıların çoxu Xorasandan geri köçüb (1735-ci ildə Nadir şah tərəfindən Borçalıdan Xorasana köçürülmüş dəmirçihasanlılar nəzərdə tutulur – F.V.), onlardan soruşsanız orada necə pis yerlərdə yaşadıqlarını söyləyəcəklər» [2, 17].

Abbas Mirzənin Güney Qafqaz ərazisinə daxil olması buradakı xan və bəyləri ayağa qaldırır. İrəvan xanı Hüseynqulu xanın qardaşı, Sarı Aslan adı ilə tanınan məşhur Həsən xan Şirək və Pəmbəkə hücum edir, Qazax, Şəmşəddil və Borçalıda ruslara qarşı qiyamlar baş verir, Borçalının böyük alman koloniyası Yekaterinfeldə (indiki Bolnisi şəhəri) hücum edilir [2, 718].

3 sentyabrda rus qoşunları Şəmkir çayı yaxınlığında şahın qvardiyasına hücum edib məğlubiyyətə uğradırlar, bir gün sonra isə Yelizavetpola (Gəncəyə) daxil olurlar. 13 sentyabrda Gəncə yaxınlığında daha bir döyüş baş verir. Bu döyüşdən sonra Qacar qoşunları Qarabağa çəkilir. Artıq 1826-cı ilin sonunda bədnam Gülüstan müqaviləsi ilə Rusiyaya verilmiş ərazi rusların nəzarətində idi.

1827-ci ilin mart ayında çar I Nikolay Yermolovu və Velyaminov, Madatov kimi digər yüksək rütbəli zabitləri dekabristlərlə əlaqədə ittiham edərək Qafqazdakı ordu komandanlığından azad edir. Yermolovun yerinə Qafqaz canişini vəzifəsinə çara sadiq general İ.F.Paskeviç təyin edilir.

1827-ci ilin yazında Paskeviçin rəhbərliyi ilə rus ordusu İrəvana hərəkət etməyə başlayır. Bu tarix boyu rusların İrəvana üçüncü yürüşü idi. İrəvana hərbi yürüşün məqsədi qacar türklərinin Güney Qafqazdakı sonuncu böyük dayaq nöqtəsi olan İrəvan qalasının işğalı və rus hökmranlığını bütövlükdə Araz çayına qədər uzatmaq idi. Qeyd edək ki, Rusiya hələ çar I Aleksandrın hökmdarlığı vaxtından Kür-Araz xəttini qacarlarla sərhəd zolağına çevirməyə çalışırdı.

Yürüşdən qabaq ruslar müharibənin başlanğıcında baş vermiş üsyandan ibrət dərsi götürərək müəyyən ehtiyat tədbirləri görmüşdülər. Qafqaz canişini-

nin Borçalı baş pristavına 1827-ci il 22 mart göstərişiylə Borçalı ağa-bəylərinin düşmən səflərinə keçməsinin qarşısının alınması məqsədilə, onların uşaqları amanat (girov) olaraq Tiflisə aparılmışdılar. «Тифлисские ведемости» qəzeti 1828-ci ildə yazırdı: «Hərbi qubernator, general-adyutant N.M.Sipyagin Tiflisdə amanatlar üçün məktəb təsis etdi, indi burada islam qanunlarını, hesabı, rus və tatar dillərini öyrənən 32 müsəlman şagird təhsil alır» [4].

Aprel ayında rus qoşunlarının general K.X.Benkendorfun rəhbərliyi altındakı avanqard (öncül) dəstələri Pəmbəkdən İrəvan xanlığının ərazisinə girir. 8 iyunda Paskeviçin əsas qüvvələri Eçmiyədzinə (Üçkilsəyə) yetişir.

Rus ordusuna irəliləmədə əsas maneəni şahın qoşunları deyil, köçəri türk tayfaları yaradırdı. Mənbələr təsdiqləyir ki, İrəvan yürüşü zamanı və ümumiyyətlə bütün müharibə boyunca ruslara ən çox ziyan yetirən tayfa qarapapaqlar idi. Tarixçi, general V.Potto yazırdı: «Rus ordusunun gəlişinə qədər İrəvan vilayətində 20-yə yaxın tatar tayfası həyat sürürdü. Bütün bu tayfalardan ciddi əhəmiyyət kəsb edən yeni düşmən təşkil olunurdu. Xüsusilə qarapapaqlar nəzərə alınmaması qeyri-mümkün olan düşmənlər idilər… Onlar içərisində qeyri-adi igidlər vardı. Qarapapaqların qanadları altına özləri kimi qoçaqlar yığını axışıb gəlirdi və onlar çox təhlükəli ola bilirdilər. Rus qoşunlarının yaxınlıqlarındakı vilayətlərə daxil olması onlar üçün olduqca xoşagəlməz idi» [5, 334-335]. Potto daha sonra yazdıqlarına qarapapaqların bu müharibədə Nağı xan və İsmayıl ağanın başçılığında müstəqil hərəkət etməyə hazırlaşdıqlarını əlavə edirdi.

14 mayda rus polkovniki Qurko Arazın sağ sahilində çoxsaylı alaçıqlar görür. Casusluq edən ermənilər xəbər gətirirlər ki, bu alaçıqları Qarapapaq Nağı xan qurub [5, 315]. Baş komandan general İvan Paskeviçin bununla bağlı xarici işlər naziri qraf Karl Nesselrodeyə göndərdiyi rəsmi məktubundan bəzi sətirləri nəzərinizə çatdırırıq: «İrəvan vilayətindən 100 qarapapaq ailəsi Türkiyəyə keçdi. Başqa qarapapaqlar (800 ailə) öz düşərgələrini Arazın o tayında salıblar və Nağı xan ilə İsmayıl ağanın rəhbərliyi altında onların ən yaxşı minicilərı Həsən xana xidmət edir. Rəisləri İsgəndər xan 9 mayda bizimlə vuruşda öldürülmüş Çoban Kərəlilər (20 ailə) də onlarladır…

Qarapapaq xalqı arasında ətraf vilayətlərin hamısında uğurlu qaçaqçılıqla şöhrətlənmiş çox cəsur insanlar var» [6, 548].

Qarapapaqların anti-rus fəaliyyəti Paskeviç ordusu tərkibində İrəvan yürüşünə qatılan məşhur rus diplomatı və yazıçısı A.S.Qriboyedovun yol qeydlərində də nəzərə çarpır. 19-20 may qeydi: «Qarapapaqlar türk sərhədinə köçüblər, bizim nümayəndələri ələ keçirib öldürürlər. Onları oradan necə sıxışdırmaq olar?» [7, 111].

Qraf Paskeviç şadlılar tayfasının rəhbəri, XX əsrin ikinci onilliyində Vedibasar mahalında erməni-daşnak işğalçılarına qarşı mübarizə aparmış xalq qəhrəmanı Abbasqulu bəy Şadlinskinin ulu babası Aslan Sultan Binnətalı Sultan oğlu ilə görüşmək təşəbbüsündə olur. «O (Paskeviç – F.V.), Vedibasarda məskunlaşmış olduqca döyüşkən, əyilməz qarapapaqlar tayfası arasında Aslan Sultanın böyük nüfuz sahibi olduğunu bilir, onun vasitəsilə qarapapaqları yola

gətirmək istəyirdi» [8, 32]. Aslan Sultan 200 şadlı və 10 qarapapaq ağsaqqalı ilə Eçmiyədzində Paskeviçlə görüşüb rusların təbəəliyini qəbul edir. Paskeviçin yazdığına görə bu qarapapaqların üzlərindən ruslara itaətdən çox etibarsızlıq açıq oxunurdu.

Aslan Sultanın rus himayədarlığını qəbul etməsi müəyyən nəticələr verməyə başlayır. V.Potto: «Şadlılardan 60 nəfər silahlarını atıb Sərdarabaddan qaçdı, Nağı xanın ən yaxşı atlılarından olan 50 qarapapaq onu tərk edib Göyçəyə qayıtdı. Ancaq bu hələ ki, ayrıca istisnalar idi. Tatar tayfalarını daha təhlükəsiz etmək üçün müvafiq tədbirlər həyata keçirmək lazım gəlirdi. Belə tədbirlərdən daha məqsədəuyğunu onlarla dinc münasibətin yaradılması idi. Rus tərəfinə keçmiş tatarların sayı az olsa da, ümid etmək olardı ki, başqaları da onların yolunu seçəcəklər» [5, 336]. Paskeviç şadlılardan bir neçəsini qarapapaqlarla əlaqə yaratmaq və onlardan mal-qara almaq üçün dağlara göndərir. Əlbəttə ki, başkomandanın əsas məqsədi qarapapaqlarla ticarət əlaqəsinin yaradılması deyildi. O, qraf K.V.Nesselrodeyə ünvanladığı məktubda açıqlayırdı ki, əsas məqsəd 30 verst aralıdakı daşınmaların Göyçə səmtindən «Həsən xan tərəfdə döyüşən soydaşları kimi qaçaqçılıqla nəfəs alan oradakı qarapapaq atlıları tərəfdən narahat edilməməsindən ibarət idi» [6, 548]. V.Potto Göyçə qarapapaqları haqqında yazırdı: «İranlıların özləri də onları köçməyə təhrik etmirdi. Çünki bilirdilər ki, dağlarda qalmaqla da qarapapaqlar onlar üçün lazımi işlər görəcəklər. Əla at sürənlər, ancaq tənbəl əkinçilər kimi onlar rusların ərzaqla təmininə heç bir kömək edə bilməzdilər, əksinə rusların əksinə çevrilməklə hər bir keçiddə, hər bir tərəfdən rus dəstələrinə ziyan vura bilərdilər» [5, 337].

General Paskeviçin gördüyü tədbirlər öz müsbət nəticələrini verirdi. Belə ki, A.S.Qriboyedovun xatirələrindən və Pottonun bu müharibə barədə yazdıqlarından aydın olur ki, Həsən xanın 9 iyunda Nağı xanın rəhbərliyindəki qarapapaqlarla rus daşınmalarına hücum etmək, «od və qılıncla Gümrüdən Cəlaloğlu və Başkeçid əraziləri vasitəsilə Zalqaya keçmək niyyətini» Paskeviçin Eçmiədzinə gələrək, dərhal ətraflardakı türk tayfaları ilə apardıqları danışıqlar pozmuşdur. Qeyd edək ki, iyunun əvvəllərində Nağı xanın minə yaxın qarapapaqla Yaş dağlar tərəfdə sərhəddə görünməsi barədə rus düşərgəsinə çatdırılan məlumat Həsən xanın Başkeçid-Zalqa (Barmaqsız) yürüşünə dair planlarının ciddiliyindən xəbər verirdi [5, 461].

Ruslar iyunun ortasında İrəvan qalasını mühasirəyə alıb hücum etsələr də, heç bir nəticəyə nail ola bilməyirlər. Paskeviç general Krasovskinin 20-ci piyada diviziyasına qalanın mühasirəsini davam etdirməyi tapşırır, özü isə əsas qüvvələri ilə Gərniçaya doğru istiqamət götürür. Çünki Abbas Mirzə qoşununu Arazın sağ sahilində cəmləşdirmişdi və ruslarla əsas döyüşü sahildəki Abbasabad qalasında qəbul etməyi planlaşdırırdı.

«Paskeviç Gərniçaya hərəkət etməmişdən qabaq qarapapaq xalqının Göyçədə yaşayan hissəsi ilə yeni əlaqələr yaratdı. Ona məlum idi ki, qarapapaqlar arasında Nağı xandan sonra öz ağlı və mərdliyi ilə daha çox Arazın bu tayındakı dağlarda qalmış Məmməd ağa tanınır. Paskeviç Məmməd ağa ilə sıx əlaqələr

yaratmağa çalışdı. Bu məqsədlə o poruçik Korqanovu 3 gürcü zadəganı ilə dağlara göndərdi. Şadlı sultanı öz qardaşını və oğlunu düşərgədə girov qoyaraq onların təhlükəsizliyinə cavabdeh oldu» [5, 338-339]. Korqanovun ilkin danışıqları çox uğurlu olur. Ruslar qarapapaqlarla aralarının düzəldiyini sanıb, heç nədən çəkinmədən hərəkət edərək 19 iyunda Gərniçaya çatırlar. Bu vaxt rus düşərgəsinə gözlənilməz xəbər yayılır ki, qarapapaqlar yenidən ruslara qarşı ayağa qalxıb Korqanovla onu müşayiət edən gürcüləri əsir götürüblər və Həsən xan onların dəvətilə dağlarla Alagözdən Göyçəyə keçib. Əsir götürülənlər tezliklə azad olunur və qarapapaqlar sakitləşirlər, Həsən xanın Göyçəyə gəlməsi xəbəri isə doğru deyildi.

«900 ailə rus təbəəliyini qəbul etdi, 150 qarapapaq atlısı Paskeviçə təqdim olunmaq üçün dağlardan endi. Onların arasında başkomandanın ruslar tərəfə çəkməyə çox çalışdığı Məmməd ağa da var idi. Paskeviç oradaca onu köçəbələrin vəkili, yəni rəisi təyin etdi. Beləliklə tayfanın yarısı Rusiyanın barışmaz düşməni Nağı xandan ayrıldı.

21 iyunda, artıq sakitlik yaranandan sonra rus ordusunun yolu açıq idi, qoşun birləşmələri nəhayət ki, Gərniçaydan Naxçıvana hərəkətə keçdi» [5, 339-340]. Bu barədə Nesselrodeyə 27 iyun 1827-ci il tarixli raportunda məlumat verən Paskeviç Məmməd ağanın 150 qarapapaq atlısı ilə onu 21 iyunda Vedi çayı yaxınlığında qarşıladığını vurğulayardı [3, 547-549]. A. Qriboyedov Məmməd ağa ilə birlikdə Paskeviçin hüzuruna gəlmiş qarapapaqlar arasında Pəmbəkli Hümbət ağanın olduğunu da qeyd edirdi.

1827-ci il 21 iyunda Hamamlı yaxınlığındakı Baş Abaran düzündə Cəlaloğludan Eçmiədzinə gedən rus dəstəsi ilə baş vermiş toqquşmada Nağı xanın oğlu öldürülür. Paskeviçin ordusu Vediçayı və Dəvəlini keçib 26 iyunda Naxçıvana soxulur. Qanlı döyüşlərdən sonra ruslar 7 iyulda Abbasabad qalasını ələ keçirirlər. Bu məğlubiyyət nəticəsində Abbas Mirzə ruslara sülh danışıqları aparmağı təklif edir. Bu təklifi Paskeviç qəbul edir və bunun üçün şahzadənin Qaraziyəddindəki düşərgəsinə A. Qriboyedovu göndərir. Mənbələrdən məlum olur ki, 21 iyulda başlanmış danışıqlarda Abbas Mirzə ilə yanaşı onun əsas əyanları Allahyar xan, Əlinağı Mirzə, qarapapaqların başçısı Nağı xan və ruslarla istənilən yaxınlaşmanın qəti əleyhdarı Həsən xan Sarı Aslan da iştirak edirlər. Abbas Mirzə Qriboyedovun İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya verilməsi və üstəlik təzminat ödənməsi təklifini rədd edir. Bir neçə gün davam edən sülh danışıqları nəticəsiz qalır. Qriboyedov 25 iyulda Paskeviçin yanına qayıdır.

Hərbi əməliyyatlar yenidən qızışır. Abbas Mirzə Ağrıdağ-Sürməli istiqamətindən İrəvana doğru irəliləməyə başlayır. O, gürcü Söhrab xanı 2 batalyon əsgər və 2 topla hücum məqsədiylə Eçmiyədzinə göndərir. Özü isə əsas qüvvələri ilə Avaranla üzbəüzdəki dağda mövqe tutur. Söhrab xan Eçmiədzini mühasirəyə alır. Eçmiədzindəki 500 əsgərlik rus qarnizonu Alagöz dağının ətəyindəki general Krasovskidən yardım istəyir. Krasovski 4000 əsgər və 4 topla yardıma tələsir. Bunu eşidən Abbas Mirzənin bütün süvari qoşunlarını Eçmiyədzinə gedən yolun kənarında yerləşdirir. V.Potto: "...min süvarilik atlı dəstə rus

düşərgəsi ilə üzbəüz Alagöz dağının yamaclarında qərar tutub, düşərgədə ən kiçicik hərəkət barədə belə sərdarı məlumatlandırırdı. Bu süvari dəstəsi ayıq-sayıq olmaqla bərabər, həm də cürətli idi; onlar şöhrətli qarapapaqlar idilər, hansılar ki, hətta Paskeviç əsas qüvvələri ilə Eçmiədzində olanda da öz başçıları Nağı xanla birlikdə onun Gürcüstanla əlaqə yollarında görünməkdə tərəddüd etmirdilər. Və Krasovski nə qədər çalışsa da, düşməni monastır düzündə bircə dəfə də olsa ələ keçirə bilmirdi" [5, 455].

17 avqustda Eçmiyədzin və Uşaqan yolu üstündə Krasovskinin dəstəsi ilə qacarlar arasında dəhşətli döyüş olur, general Krasovski yaralanır. Abbas Mirzə əsirləri şahın yanına göndərib Xoy şəhərinə tərəf yollanır.

XIX əsrin salnaməçilərindən olan Mirzə Yusif Nersesov Qarabaği farsca yazdığı «Tarixi-safi» əsərində Krasovskinin dəstəsində olan qarapapaq süvariləri ilə Abbas Mirzənin atlıları arasındakı döyüşü belə təsvir edirdi: «Qazax, Borçalı və Qarapapaq atlılarından ibarət rus qoşunlarını dövrəyə almış qızılbaşlar vuruşmağa başladılar. O gün güclü müharibə və vuruşma oldu. O gün gündüz saat ikidən günbatana kimi top və tüfəngin atəşi hər yeri bürümüşdü, dava və müharibənin odu isə alovlanırdı. Hər iki tərəf qurban verməkdən çəkinmirdi.

Ruslar (rus ordusundakı qarapapaqlar – F.V.) ətrafında qızılbaş atlılarının güc gəldiyini hiss etdikdə, arabaları mahud və başqa şeylərlə doldurub orada qoyaraq özləri qabağa getdilər. Qızılbaş qoşunu arabalarda xəzinə və ya parça olduğunu zənn edib, qarətlə məşğul oldular. Bu vaxt ruslar toplarını seçmə ilə doldurub onların üstünə atdılar. Beləliklə, qızılbaşların çoxu məhv oldu» [9, 88].

Bu müharibədə qacar türkləri ilə döyüşlərdə göstərdikləri igidliklərə görə bir neçə Borçalı qarapapağı medallarla təltif olunur. Onların arasında boluskəpənəkçili Məmməd ağa Abdulla ağa oğlu da var idi [10, 56].

Sentyabrın əvvəllərində Paskeviçin ordusu Eçmiyədzinə çatır, 20 sentyabrda Sərdarabadı tutur, 24 sentyabrda 40 topla İrəvana hücum edir. İrəvanın müdafiəsinə Həsən xan rəhbərlik edir. Bir həftə davam edən şiddətli döyüşlərdən sonra 1827-ci il oktyabrın 1-də İrəvan qalası rus qoşunlarının işğalına uğrayır. İrəvanı aldığına görə general Paskeviçə «qraf Erivanski» titulu verilir.

1827-ci ilin sonu 1828-ci ilin əvvəllərində rusların bir-birinin ardınca Təbriz, Xoy, Urmiyə, Səlmas, Ərdəbil şəhərlərini işğal edib Tehrana yönəlməsi Abbas Mirzəni sülhə vadar edir. 1828-ci il 10 fevralda Təbriz-Tehran yolu üzərində yerləşən Türkmənçay kəndində İrəvan və Naxçıvan xanlıqları ərazilərinin Rusiyaya verilməsi, Qacar İranının 20 milyon rubl təzminat ödəməsi və İrandan ermənilərin kütləvi şəkildə Qarabağ və İrəvan mahalına köçürülməsi ilə nəticələnən sülh müqaviləsi imzalanır.

## ƏDƏBİYYAT


1. Коцебу М.Е. Описание вторжения персиян в Грузию в 1826-ом году. Материалы к истории персидской войны 1826-1828 годах // Кавказский сборник, т.22. Тифлис, 1901, с. 1-182.
2. Акты, изданные Кавказской археогр. комиссией под ред. Берже А. (АКАК), VI c., I hissə. Tiflis, 1874.

3. AKAK, VII c. Tiflis, 1878.
4. «Тифлисские ведомости», 1828, 19 sentyabr, № 12.
5. Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях: в 5 томах, том 3-й, Персидская война 1826-1828 гг., вып. 2. СПб, 1887, 520 с.
6. AKAK, VIII c., Tiflis, 1881.
7. Полное собрание сочинений А.С.Грибоедова: в 2-х томах, т. 1-й. СПб, 1889, 476 с.
8. Ə.Ələkbərli. Abbasqulu bəy Şadlinski. Bakı: Ağrıdağ, 1996, 192 s.
9. Qarabağnamələr, II kitab. Bakı: Yazıçı, 1989, 192 s.
10. V.Hacılar. Ulu baban kim olub?, I kitab, Bolus-Kəpənəkçi kəndi – XIX yüzil. Tiflis, 2005, 60 s.

## БОРЧАЛИНЦЫ ВО ВТОРОЙ РУССКО-КАДЖАРСКОЙ ВОЙНЕ

**Ф.В.ГАДЖИЕВ**

### РЕЗЮМЕ

Накануне русско-каджарской войны 1826-1828 гг., набравшихся опытом предыдущей первой русско-каджарской войны 1804-1813 гг. как Российская империя, так и Каджарское государство предпринимали серьезные усилия для привлечения на свою сторону воинствующих карапапахцев − субэтнической группы азербайджанцев, проживающих в приграничных районах, в особенности в Борчалы. Несмотря на то, что некоторые карапапахцы взамен на предоставленные им привилегии перешли в ряды российской армии, большинство из них безусловно предпочли сражаться бок о бок со своими братьями по языку, религии и крови в каджарской армии. В рядах каджарских войск храбростью и отважностью отличались кавалерийские отряды борчалинских добровольцев под командованием Наги хана и Исмаил хана.

Статья посвящается освещению участия борчалинских азербайджанцев (карапапахцев) под предводительством Наги хана и Исмаил хана в русско-каджарской войне 1826-1828 гг.

**Ключевые слова:** Наги хан, Исмаил ага, карапапахцы, история войн, русско-каджарская война

## BORCHALIS IN THE SECOND RUSSIAN-QAJAR WAR

**F.V.HAJIYEV**

### SUMMARY

On the eve of the Russian-Qajar war of 1877-1878, having gained the experience of the first Russian-Qajar war of 1804-1813, the Russian Empire and the Qajar State made serious efforts to bring to their sides militant Garapapags – a sub-ethnic group of Azerbaijanis living in the border areas, especially in Borchali. Despite the fact that some Garapapags in return for the granted privileges joined the ranks of the Russian army, most of them undoubtedly preferred to fight side by side with their brothers in language, religion, and blood - in the Qajar Army. In the ranks of Qajarian troops the cavalries of Garapapag volunteers under the command of Naghi Khan and Ismayil Khan differed for their courage and dare.

The article deals with the participation of Borchali Azerbaijanis (Garapapags) led by Naghi Khan and Ismayil Khan in Russian-Qajar war in 1826-1828.

**Key words:** Naghi Khan, Ismayil Aga, Karapapags, military history, Russian-Qajar war